

Nizami Gəncəvi

# Hind gözəlinin hekayəti



Bakı – 2019





Bəhram şah şənbə günü qara paltar geyinib, qara rəngli günbəzə Hind gözəlinin hekayətini dinləməyə gəlir.

İsmətli Hind gözəli hekayətinə belə başlayır:

—Deyirlər ki, bizim saraya qara geyimli, mömin bir qadın gələrmiş. Ondan soruşublar ki, nə üçün həmişə qara geyinirsən? Bunun sirrini bizə aç.

Qadın onların sözünü yerə salmayıb qara geyinməyinin səbəbini aydınlaşdıraraq deyir:

—Mən bir şahın kənizi idim. Şah həmişə qara geyinərdi. Ona qara geyimlilərin padşahı adı vermişdilər.

Bir gün yalvar-yaxarla şahımın nə üçün qara geyindiyini soruşdum. Şah cavab verdi ki, bir gün sarayıma qara paltarlı, qəmli-qüssəli bir adam gəldi. Həmin qonaqdan qara geyinməyinin səbəbini soruşanda belə cavab verdi:

—Çində qədim bir şəhər var, Heyranlar şəhəri. Həmin yerdə hamı qara geyinər. Oraya kim gəlsə onların adəti ilə o da qara geyinməyə məcbur olar. Ey hökmdar, başımı vurdursan da, bu sirri açan deyiləm,—deyə qərib qonaq sirri açmadan çıxıb gedir.

Şah nigaran qalır. Gecə-gündüz narahat olur. Hər yana adam saldırır, qərib qonaqdan xəbər verən olmur ki, olmur. O, şahlığı qohumuna tapşırır. Geyim-yeyim götürüb həmin qərib qonağın şəhərinin sorağına düşür. Axırda həmin şəhəri tapır. Görür ki, Heyranlar şəhəri çox gözəldir. adamları qəşəng və yaraşıqlıdır. Lakin əyinlərindəki paltarları qırdan da qaradır. Şah bir evdə qonaq qalır. Bir il gəzib dolaşır, kimdən soruşursa, heç kəs adamların nə üçün qara geyinməyinin səbəbini demir ki, demir.

Bir qəssabla tanış olub dostlaşır. Ona dünya malından qızıl, gümüş, cəvahir və ipək verir. Hökmdarın verdiyi





var-dövlət qəssabı qurbanlıq öküz kimi şişirdir. Bir gün qəssab şahı evinə qonaq çağırır. Şah məclisdə ev yiyəsindən soruşur:

—Mən dağlar aşıb, dərələr keçib, ölkələr gəzib gəlmişəm ki, bir sirdən agah olum, niyə bu ölkənin adamları hamısı qara geyib?

Şahın yaxşılığından xəcalətli qəssab qaranlıq gecədə onu bir xarabaya aparır, bir səbət gətirib qarşısına qoyub deyir:

— Bu səbətə gir, onda bilərsən ki, bu yerin insanları nə üçün qara geyinirlər. Şah səbətə girir. Sehrli səbət bir quşa dönüb onu göylərə qaldırır. Səbət göydələn bir minarəyə çatır. Şahı qorxu bürüyür. Dağ gövdəli bir quş minarəyə qonur. Quşun dimdiyi elə bil ki, bir sütundu, qanadları ağac budağıdı. Minarə sanki onun ağırlığından uçacaqdı. O quş hər qanad açıb çırpınanda ətirdən yer üzü bihuş olur, ətrafa parlaq incilər səpilirdi.

Şah qorxur ki, quşun ayağından yapışsa, onu didib parçalayar. Fikirləşir ki, göydən yerə yıxılıb ölməkdənsə, quşun caynağından yapışsa yaxşıdır.



Səhərə yaxın quş qanadlanıb uçur. Şah quşun caynağında ürəyini yeyə-yeyə şimşək sürətilə uçmağa başlayır. Xeyli uçandan sonra yerə enir. Gülləri sayrışan bir gülşən onu qoynuna alır. Gecə ulduz-ulduzu çağıranda ay işığında yüzlərlə gözəl pəri onun başına toplaşır. Gözəllər şölə saçan şamların işığında yerə xalı döşəyib taxt qururlar. Bir azdan ay batır, günəş doğur. Dövrəsində yüz min pəri olan gözəl bir gəlin onun yanında əyləşir. Onun camalı bütün dünyaya işıq saçır. Şah Türknaz adlı bu gözələ aşiq olur. Türknaz kənizləri ilə onu əyləndirir. Şah isə yalnız gözəl Türknazın vüsalına qovuşmaq istəyir.

Türknaz deyir:

— Mənim vüsalıma çatmaq istəsən qırx gün gözləməlisən.

Şah otuz doqquz gün gözləyir. Hər dəqiqə on il qədər uzun gəlir. Otuz doqquzuncu gün daha dözə bilməyib Türknazın vüsalına çatmaq istəyir. İşi belə görən Türknaz deyir:

—Bir halda ki, dözə bilmirsən onda gözlərini yum, istəyinə çatarsan.





Şah gözlərini yumub açınca Türknaz yoxa çıxır. Hökmdar yenidən özünü əvvəlki sehrli səbətin içində görür. Köhnə dostu gəlib səbətin kəndirlərini açır.

Xoşbəxtliyin bir anda yox olduğunu görən şah dözmür. Qara geyinib öz ölkəsinə qayıdır.

O gündən özünü qara geyinənlərin şahı elan edir. Hind gözəli bu əhvalatı danışandan sonra Bəhram şaha məlum olur ki, qara rəngin də öz gözəllikləri vardır:

Dirilik suyu qaranlıq zülmətin qoynunda çağlayır. Qaranlıq gecədə ayın camalı şölə saçır. Qara rəngli çətir sultanlara daha xoş gələr.

Qara tük gəncliyin nişanəsidir. İnsan dünyanı gözün qarası—bəbəyi ilə görür.









Nizami Gəncəvi

# hind gözəlinin hekayəti

Çapa imzalanıb: 01.03.2019
Formatı 60x84 1/8.
Həcmi: 1ç.v.
Tirajı: 500 nüsxə.